*Zemfira MƏHƏRRƏMLİ*

# Qarabağ yaddaşımızın inikası – "Bayraqdar"



Aradan illər ötsə də, dövranın gərdişi ilə çox sular axsa da, zamanın qol-qanad verdiyi dəli rüzgarlar səmtini tez-tez dəyişib üzümüzə qamçıtək çırpılsa da, tarixin qanla yazılmış, unudulmayan salnaməsini xatırlamağa məhkumuq. Bu salnamənin çözələnən səhifələri itirilmiş torpaqlarımızın həsrətini uzun illər ərzində qəlbində yaşadan hər birimizi düşünüb-daşınmağa, sərvaxt, ayıq-sayıq, gözüaçıq olmağa səsləyir. Bunu deməklə heç də yeni fikir söyləmirəm ki, təkrarolunmaz təbiətə, saf iqlimə, can dərmanı büllur bulaqlara, bənzərsiz tarixi abidələrə, memarlıq nümunələrinə malik olan Qarabağımız xain qonşularımızın başladığı hərb qovğasına səbəb oldu. Ermənilər və onların əsassız torpaq iddialarına züy tutanlar qanlı savaşa – Birinci Qarabağ müharibəsinə rəvac verdilər. Bu minvalla Qarabağımız gərgin münaqişə, çək-çevir, qarşıdurma meydanına çevrildi. Bu füsunkar diyarın işğal edilməsi, hər bir şəhərin, kəndin, bölgənin düşmənin nəzarətinə keçməsi böyük faciə idi. Qarabağın tacı olan Şuşanın − bu strateji əhəmiyyətli şəhərin işğalı isə ən böyük itkilərimizdən idi.

Ağrılı Qarabağ düyünü, 90-cı illərin əvvəllərində tüğyan edən savaş barədə az yazılmayıb. Xüsusən, deyim ki, poeziyamızda bu mövzuya daha çox müraciət olunub. Azərbaycan nəsri də bu müqəddəs mövzuya, necə deyərlər, borclu qalmayıb. Uzun illər qəlb yaramıza çevrilmiş Qarabağ problemini birbaşa deyil, üzləşdiyimiz davanın müsibətlərini yaşamış yurddaşlarımızın nisgilli taleyi kontekstində əks etdirən bədii nümunələr isə daha çoxdur. Nəsrimizin ən görkəmli nümayəndələrindən biri, ədəbiyyatımıza yeni ab-hava gətirən Xalq yazıçısı, dramaturq Elçinin "Bayraqdar" povesti, "Qarabağ şikəstəsi" və "Sarı gəlin" hekayələri bu qəbildəndir. Yazıçı dövrün tələbinə uyğun, yaşadığımız zamanın həyatımızın ayrılmaz bir hissəsi olan bu ağrılı mövzuları qələmə alıb. Ədibin 2000-ci illərin əvvəllərində yazdığı "Bayraqdar" povesti zorla düçar olduğumuz müharibə ucbatından isti ev-eşiyini tərk etmək məcburiyyətində qalan qarabağlıların yaşadığı çətinliklərdən, üzləşdiyi məşəqqətlərdən, yurd nisgilindən, torpaq dərdindən bəhs edir.

Doğma torpaqlarını, ocağını itirən qaçqınlar Bakının Buzovna qəsəbəsindəki fəhlə yataqxanalarından birində məskunlaşıblar. Əgər buna

yaşayış demək mümkünsə. Əslində, onlar heç bir normal şəraiti olmayan, sınıq-salxaq bir otaqda özlərinə sığınacaq yaradıblar. Müharibə gedən bir məmləkətin yarıac, yarıtox didərginləri gündüzlər ruzi dalınca çıxıb Bakı kəndlərini dolaşır, qazanc yeri tapanda sevinirlər. Qaş qaralanda fəhlə yataqxanasına qayıdan, yorğun-arğın yuxuya gedən və röyalarında boya-başa çatdıqları yurd yerini görən zavallıların acı taleyi müəllifin fərdi üslubu, təkrarsız yazı manerası ilə nəql olunur. Milli kolorit yaratmaqda pərgar olan yazıçının məharətlə təsvir etdiyi Abşeron mənzərələri, qırçın ləpəli mavi Xəzərin kəhrəba qumlu sahilləri, Bakı bağlarının ekzotik görkəmi belə yurd yerini itirmiş qaçqınların könlünü, ruhunu oxşamır. Onların xəyallarında gördükləri yalnız Şuşa, onun təbii gözəllikləridir. Qəmə bələnmiş bu nisgilli insanlar – Şuşa qaçqınları füsunkar Qarabağı, onun zümrüd meşələrini, əsrarəngiz Turşsuyunu, Cıdır düzünü, İsa və Səkili bulaqlarını heç vaxt unutmur, tez-tez göz önünə gətirir, doğma yerlərlə bağlı yaşantılarını ömürlərinin ən unudulmaz, qiymətli anları hesab edirlər.

Elçinin qələmə aldığı mövzuya özünəməxsus, fərqli və sərbəst müəllif baxışı var. İşıqlandırdığı mövzunu mükəmməl bilən yazıçı, haqqında söz açdığı hadisələri yüksək bədiiliklə, təbii və inandırıcı təsvir edir. Emosional, bədii-estetik təsir gücünə malik olan, əslində, insan qəlbinin ağrı-acılarına köklənmiş, bəzən kəskin, sərt təhkiyə ilə nəql edilən, bəzən isə baməzə, yumor dolu hadisələrin əksini tapdığı bu əsər haqqında, ümumən Elçin yaradıcılığının dəyəri, məziyyətləri barədə maraqlı mülahizələr söylənmişdir. Akademik Məmməd Arif vaxtilə yazırdı: “Elçinin sadə və rəvan təhkiyəsində cəzbedici bir qüvvə var. Bəli, E.Əfəndiyevin bədii sintaksisindəki cəzbedici qüvvə daha da inkişaf etmiş, milli ədəbiyyatımızı zənginləşdirən sənətkarlıq xüsusiyyətinə çevrilmişdir. Bu nöqteyi-nəzərdən “Bayraqdar” povestinin təhkiyə dolğunluğu, eyni zamanda axıcılığı oxucunu ələ alır.”

Əməkdar elm xadimi, professor Nizaməddin Şəmsizadənin fikrincə, “Elçin unudulmaz İlyas Əfəndiyevin sanballı romanlar və dramlar yazmış əzəmətli əlinin sığalı ilə böyümüş... atasının və onun mənsub olduğu nəslin böyük ədəbi-tarixi ənənələrini əzmlə davam etdirmişdir. Bu gün o, yazıçı, dramaturq, ictimai xadim, tənqidçi, ədəbiyyatşünas kimi möhtəşəm fəaliyyət göstərməklə bərabər... böyük ədibin ənənələrini sozalmağa qoymur.”

Akademik Nərgiz Paşayevanın fikirlərinə diqqət yetirək: “...Elçinin yaradıcılığında “yazıçı yaddaşı” güclü bir faktordur. Onun “Bayraqdar” povesti öz müəllifinə müasir dövrdə – XXI əsrin əvvəllərində də ədəbi bayraqdarlıq ucalığı gətirmişdir.”

Görkəmli tənqidçi Bəkir Nəbiyevə görə isə “Elçin adamların xarakterindəki keçici, ötəri yox, mühüm, təyinedici cəhətləri görür, işıqlandırır və bu işıq altında da yaddaqalan surətlər yaradır.”

Əsərdə zəngin obrazlar qalereyası ilə qarşılaşırıq. Surxay Bayraqdar, Cümü (Qızıldiş Cümşüd), Bolşevik Bufetçi İbadulla, Kolxoz kişi, Dəmir Kazım, Məleykə müəllimə, Əbülfət (Eysebio), Cəmilə, Vasili Kuzmiç, Əhməd Ağayeviç, Səyyarə, Kamança Tanrıverdi, Ələmdar, erməni Arsen, Gözlə Gəlirəm Məmməd kişi, Cəmilə, Ağasəlim, Molla Fərzəli (Fərzəli

müəllim) kimi obrazlar canlı və diridir. Hətta epizodik surətlər belə, çevik və yadda qalandırlar. Müəllif müxtəlif situasiyalar, real ovqat yaratmağı ön plana çəkir. Ən kiçik hadisələrdən danışarkən belə, oxucunun diqqətindən yayınmayan, hafizəmizdə qalan xarakterlər göz önündə canlanır.




Əsərin baş qəhrəmanı Surxay obrazıdır. Bəlli olur ki, vaxtilə Şuşanın mərkəzindəki köşkdə qəzet satan Surxayın, oğlu Əbülfətdən və öz əlləri ilə düzəltdiyi üçrəngli bayrağımızdan qiymətli heç nəyi yox idi. Surxay Bayraqdar hələ 1988-ci ildə bu üçrəngli bayrağı başı üstündə dalğalandıraraq etiraz mitinqlərinin önündə dayanardı. Əsərdə oxuyuruq: "O vaxtdan Şuşada bir mitinq olmadı ki, Surxayın bayrağı o mitinqin iştirakçısı olmasın, erməni gülləsinə tuş gələn bir şəhid dəfni olmadı ki, Surxayın əlindəki o bayraq orada başını əyməsin..." Cümhuriyyət dövrünün yadigarı, mücadiləmizin rəmzi olan bu bayrağa hədsiz ehtiramına görə Surxayı Bayraqdar deyə çağırırdılar.

Qaçqınlıq həyatı başlayandan sonra Surxay Bakı-Mərdəkan yolunda qəzet sataraq gündəlik çörək pulunu qazanırdı. Şuşadan gətirdiyi, əziz nişanətək qoruyub saxladığı bayrağını yataqxananın üçüncü mərtəbəsindəki balaca otağının pəncərəsindən asmışdı. Futbol həvəskarı olan oğlu (bu səbəbdən ona Eysebio deyirdilər) Əbülfət qazanxananın damına düşən topu götürərkən sürüşüb üzüqoylu bayrağın üstünə düşür. Bayrağın dəstəyinin ucundakı iri mismar onun sinəsini deşib ürəyinə sancılır. Əziz oğlunun həyatdan erkən köçməsini, faciəli ölümünü ağrı-acıyla qarşılasa da, Surxay üçrəngli bayrağı gətirərək, yas mərasiminin qurulduğu həyətdə iydə ağacının budaqlarından asır. Düşünmək olardı ki, əsərin qəhrəmanı yeganə oğlunun ölümünə səbəb olmuş bu bayrağa münasibətini dəyişəcək. Amma belə olmur. Axı bu bayraq onun ailəsini və qonşuluqda yaşayan qaçqın ailələrini Şuşaya bağlayan, intizarında olduqları o böyük Qayıdış gününə bəslədikləri ümid işartısıdır. Povestin kulminasiya nöqtəsi olan bu səhnə oxucuya vətənpərvərlik ruhu, düşmənə qarşı mübarizə əzmi aşılayır.

Əsərdəki Arsen obrazı ilə yazıçı namərd ermənilərin xəbis xislətini olduqca inandırıcı təsvir etmişdir. Yeri gəlmişkən, maraqlı bir məqamı nəzərə çatdırmaq istərdim. Yazıçı Elçinin 2021-ci ilin mart ayında "Ədəbiyyat qəzeti"ndə çap etdirdiyi "Şuşanın dağları başı dumanlı" adlı yazısında belə bir fakt diqqətimi çəkdi: "Biz vaxtilə Şuşaya gələndə qohum-əqrəbanın evində yox, Yazıçılar Evində qalırdıq və Arsen adlı bir erməni oranın həm ko-

mendantı, həm də gözətçisi idi. Əynində həmişə nimdaş erməni libası olan qoca anasıyla, arvadı, rus qadını Yeva, oğulları Arkadi ilə bir yerdə elə orda da qalırdı. Yevanın əvvəlki rus ərindən Vova adlı göygöz, sarışın (tipik rus balası!) bir oğlu da var idi. Arsen onu oğulluğa götürmüşdü, bir yerdə yaşayırdılar... 1980-ci illərin sonlarında irqçi erməni separatizmi baş qaldıran vaxt eşitdim ki, Arsenin həmin rus oğulluğu Vova atalığının erməni familiyası ilə o separatçılığın ən qatı üzvlərindən, mitinq rəhbərlərindən biriymiş".

Bu parçadan aydın olur ki, "Bayraqdar" povestindəki Arsen obrazı bizə düşmən olan və böyütdüyü övladlarını da xalqımıza kin-küdurət, nifrət ruhunda tərbiyələndirən həmin xəyanətkar erməninin həyatdan götürülmüş prototipidir.

Yazımı ədibin haqqında bəhs etdiyim "Şuşanın dağları başı dumanlı" adlı məqaləsindən diqqəti çəkən daha bir məqamla yekunlaşdırmaq istərdim: "Şuşa yalnız gözəl havada dincəlmək, gözəl məclislər qurmaq, gözəl təbiəti vəsf etmək məkanı deyil, Şuşa böyük milli-mənəvi məkandır. Etiraf etmək istəyirəm ki, mən Şuşanın azad olunacağını görəcəyimə inanmırdım, bu mənim içimdə bir yara idi, çünki bu otuz illik erməni işğalı göstərdi ki, dünyanı ikili standartlar idarə edir... Ali Baş Komandanımız ikili standartlar dünyasında son dərəcə ciddi və cəsarətli iradə ortaya qoydu. Bu iradə nəticəsində Azərbaycan əsgəri Şuşanı, Cəbrayılı, Füzulini, Qubadlını, Zəngilanı, Hadrutu, Laçını, Ağdamı, Kəlbəcəri işğaldan azad etdi.

Bu gün Şuşa dağlarının başındakı duman yenə su kimi aydınlıq gətirən dumandır. Bu gün Şuşa yenə öz aurasının altındadır..."

---

